**Ölüm doğdu o gecə...**

Qarabağ hadisələri başlanandan indiyə qədər hər dəfə əlimə qələm alanda bütün vücudum lərzəyə gəlir. İçimdəki qəzəbi və etirazı istədiyim şəkildə yazmağa çətinlik çəkirəm. Hiddətim və qəzəbim fikrimi dəqiq ifadə etməyə imkan vermir. Çünki xalqıma edilən gözgörəsi zülm o qədər böyük, haqsızlıq o qədər dəhşətlidir ki, bunları insan ağlı dərk edə bilmir. Zülmün və haqsızlığın bu dərəcədə ola biləcəyini təsəvvürümə gətirə bilməzdim.

Qəlbimə və ağlıma 20 illik zaman kəsiyində sığmayan bu dəhşətləri və üstümüzə yağış kimi yağdırılan böhtanları, çamurları hansı sözün qüdrəti ilə deyim? Hansı ifadələrlə cümlələrə düzüm? Şahidi olduğumuz bu müsibətlər heç bir dilin çərçivəsinə sığışmır..

Əcdadları bu torpağa gəlmə olan ermənilər indi Ermənistan adlandırılan dədə-baba torpaqlarımıza sahib olmaları bəs deyilmiş kimi, Azərbaycandakı torpaqlarımıza da zaman-zaman tamah salıblar. Onlar bu torpaqlara sahib çıxmaq üçün mütləq yalan danışıb, ev sahibinə böhtan atıb, doğrunu bucağa qısıblar. Bunlar azmış kimi, dünyanı da öz yalanlarına inanmağa məcbur ediblər. Çox uzağa getməyək. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda dinc yaşayan qarabağlılara qarşı törətdikləri soyqırımını sonra özlərinə sərfəli şəkildə təbliğ etdilər. Dünyaya səs saldılar ki, guya Xocalıda qırılanlar azərbaycanlılar yox, zavallı, hər yerdən, hətta Ermənistandan belə, əli üzülmüş ermənilərdir. Guya azərbaycanlılar ermənilərə qarşı barbarcasına hərəkət edərək soyqırımına yol veriblər. Onlar ənənələrinə sadiq qalaraq bu dəfə də tarixi hərtərəfli saxtalaşdıraraq həqiqətə kölgə salmağa, Avropa və Amerikada yaşayan havadarlarını da özlərinin yalanlarına məharətlə inandırmağa çalışdılar. 1988-ci ildə, ondan sonra 1990-cı il yanvarın 13-də Bakıda və Sumqayıtda özləri özlərinə qarşı mənfur siyasətlərini həyata keçirərək aləmə bəyan etdilər ki, azəri türkləri onları vəhşicəsinə qırır. Öz küdurətlərinə və başqa xalqlara atdıqları böhtana görə qonşuları tərəfindən qovulan bu millət dünyaya pərpətöyün toxumu kimi səpələnib. Əfsanəvi "dənizdən-dənizə" və "Böyük Ermənistan" xülyasına görə biz öz torpağımızın sahibi deyilik.

Qarabağ hadisələri başlayandan bugünə qədər başımıza gətirilən müsibətləri xronoloji surətdə yazmaq, bunları tarix və gələcək nəsil üçün bir ibrət dərsi qoymaq üçün əli qələm tutan hər bir azərbaycanlı bu hadisələrə biganə münasibət göstərməməlidir.

SSRİ dövründə qeyri-rus millətindən olanlara, xüsusən də, Qafqazda yaşayan müsəlmanlara qarşı ikili münasibət göstərən imperiya rəhbərləri Azərbaycanda ermənilərə elə bir meydan vermişdilər ki, ölkənin heç bir yerində onlar qədər yüksək şəraitlə təmin edilmiş başqa millət yox idi. Bütün bu azğınlıqlar, qudurğanlıqlar və xaricdən havadarlıq onları 1988-ci ildə əsası olmayan bir məsələni - "dənizdən-dənizə" və "Böyük Ermənistan" ideyasını yenidən ortaya atmağa şirnikləndirdi. 1988-ci ildən başlanan milli faciələr 1990-cı ildə ermənilərin əli ilə davam etdirildi, ardı-arası kəsilməyən qanlı qırğınlar törədildi, tarixdə analoqu olmayan soyqırımı hadisələri baş verdi. Xocalı soyqırımı da ermənilərin ruslarla birlikdə düşündükləri və vəhşicəsinə həyata keçirdikləri məkrli siyasətin nəticəsidir. Bu, erməni millətçilərinin xalqımıza zərbə vurmaq üçün əl atdıqları insana yaraşmayan mənfur və eybəcər hərəkətlərin məntiqi davamıydı.

1992-ci ilin 25 fevral gecəsi... Qarabağ hadisələri başlanan vaxtlardan üzü bu yana xalqımızın başına gətirilən müsibətlərin, demək olar, hamısı gecələr törədilib. Xocalı faciəsi də fevralın 25-dən 26-na keçən gecə baş verdi. Müasir silahlarla silahlanmış erməni və sovet hərbi birləşməsinin əsgərləri Xocalıya daxil olub yalın əllə torpağını müdafiə etmək istəyən xocalılı oğul və qızlarımızı qana bələdi. Nə idi çiçəyi burnunda ölən yeniyetmələrimizin, torpağımızın bütövlüyünü qorumaq istəyən cavanlarımızın, namuslu qız-gəlinlərimizin günahı? Vətən torpağını sevmək, onu qorumaq istəmək haçandan günah hesab olunurdu? O qanlı gecə Azərbaycan xalqı bir daha min illik qəhrəmanlıq tarixini ortaya qoydu, qəhrəmanlıq ənənələrini müdrikcəsinə sübut etdi. O sübut etdi ki, bu xalq azadlığı, torpağının müstəqilliyi yolunda ölümə hazırdır. Ölümə hazır olmayan millət isə azadlığını qazana bilməz. Yalın əllə müasir silahlara cavab verən cavanlarımız sübut etdilər ki, bu millət üçün azadlıq zəruriyyət səviyyəsinə yüksəlib. Azadlığını zəruriyyət bilən bir xalq isə artıq yetkin xalqdır. Bu cavanlar silahla deyil,

ölümləriylə ölüm saçan tanklara meydan oxuyarkən artıq ölümün o tayına - yəni, ölümdən yüksək olan şəhidlik zirvəsinə yüksəldilər. Bu zirvədə olanlar Babəkin, Nəsiminin və Koroğlunun xeyir-duasını qazandılar. Onlar məlum həqiqəti bir daha təsdiq etdilər ki, vətən oğulları vətən uğrunda ölməyi bacarmasalar, vətən dirilməz. Vətən uğrunda ölməyi bacaran oğullarımızın şücaəti sayəsində biz özümüzü dünyaya tanıda bildik.

O qanlı gecə qəlbimizə elə dağ çəkildi ki, bu dağın sızıltısı torpaqlarımız azad olunmayınca davam edəcək və çəkdiyimiz bütün əzab və zilləti bizə həmişə xatırladacaq. Təqvimlərimizə 25-26 fevral qara hərflərlə yazılıb və gələcək nəsillər bu iki rəqəmi tarix kimi yadda saxlayıb, hər zaman qatilləri lənətləyəcəklər.

Bu kiçik qeydlərimi bu yaxınlarda haqq dünyasına qovuşmuş böyük şair Bəxtiyar Vahabzadədən gətirdiyim bir bənd şeirlə bitirmək istəyirəm:

Qara geydi bu Vətən,
Yox hayına bir yetən.
Həyata hamiləykən
Ölüm doğdu o gecə...

**Daşdəmir Əjdəroğlu**

**Azərbaycan.-2009.-26 fevral.-S.4.**